**UOT 388:801.6; 398:82.0; 801.8**
**https://doi.org/10.59849/2218-4783.2026.1.224**

# NAXÇIVAN BAYATILARININ POETİK ÖZÜNƏMƏXSUSLUĞU

# POETIC SPECIFICITY OF THE NAKHCHIVAN BAYATIS

**Aytəkin ZEYNALOVA***

## XÜLASƏ

Məqalədə Azərbaycan xalq ədəbiyyatının ən qədim və yığcam janrlarından biri olan bayatıların Naxçıvan bölgəsində formalaşmış nümunələri folklorşünaslıq kontekstində araşdırılır. Tədqiqatın əsas məqsədi Naxçıvan bayatılarında məkan obrazının, regional kimliyin və fərdi lirik motivlərin poetik ifadə xüsusiyyətlərini üzə çıxarmaqdır. Məqalədə bayatı janrının sadə forma ilə dərin məzmunu birləşdirən təbiəti vurğulanır, onun xalqın dünyagörüşünü, mənəvi-əxlaqi dəyərlərini və tarixi yaddaşını əks etdirmə imkanları elmi-nəzəri baxımdan şərh edilir.

Araşdırma zamanı Naxçıvan bayatılarında məkan anlayışının yalnız coğrafi çərçivə ilə məhdudlaşmadığı, əksinə, mənəviyyat, müqəddəslik, sosial davranış normaları və kollektiv yaddaşla vəhdətdə təqdim olunduğu müəyyənləşdirilir. Naxçıvanın təbii sərvətləri, tarixi-mifoloji obrazları və etik dəyərləri bayatı mətnlərində rəmzi və metaforik vasitələrlə ifadə olunur. Bununla yanaşı, sevgi, ayrılıq, tale motivləri fərdi lirikanın nümunələri kimi təhlil edilir və bu motivlərin sosial mühit və adət-ənənələrlə əlaqəsi göstərilir.

**Açar sözlər:** *bayatı, Naxçıvan bayatıları, regional kimlik, məkan obrazı, sevgi və ayrılıq.*

## ABSTRACT

This article examines examples of *bayatis* – one of the oldest and most concise genres of Azerbaijani folk literature – formed in the Nakhchivan region within the context of folkloristics. The main objective of the study is to reveal the poetic features through which the image of space, regional identity and individual lyrical motifs are expressed in Nakhchivan *bayatis*. The article emphasizes the nature of the *bayati* genre as one that combines a simple form with profound content, and from a scholarly and theoretical perspective explains its capacity to reflect the people's worldview, moral and ethical values and historical memory. The research determines that in Nakhchivan *bayatis*, the concept of space is not limited solely to a geographical framework; rather, it is presented in unity with spirituality, sacredness, norms of social behavior and collective memory. The natural resources, historical-mythological images and ethical values of Nakhchivan are expressed in *bayati* texts through symbolic and metaphorical means. In addition, the motifs of love, separation and fate are analyzed as examples of individual lyricism, and the relationship of these motifs with the social environment and traditions is demonstrated.

**Keywords:** *bayati, Nakhchivan bayatis, regional identity, image of space, love and separation.*

## GİRİŞ

"Türk folklorunun qədim janrlarından olan bayatılar sadəlik və mürəkkəbliyin, aşkar və gizlinin, ilkinlik və çağdaşlığın ecazkar vəhdətilə müasir oxucunu heyrətə salır. Ancaq bu heyrətdən və bayatı müdrikliyinin ani dərkindən doğan hisslər ən munis duyğulardır. Bayatı təfsiri və dərki əslində mədəniyyət və dilimizin, özlüyümüzün dərki deməkdir" [Hacılı, 2019, s. 4] Azərbaycan xalq

* AMEA Naxçıvan Bölməsi, E-mail: aytekinimanova14@gmail.com
ORCİD: 0009-0001-8503-9443

ədəbiyyatının ən qədim və yığcam janrlarından biri olan bayatılar xalqın dünyagörüşünü, estetik zövqünü, tarixi yaddaşını və emosional təcrübəsini dörd misralıq poetik struktur daxilində ifadə edən şifahi söz nümunələridir. Sadə forma və dərin məzmunun vəhdəti ilə seçilən bayatılar əsrlər boyu xalq düşüncəsinin, mənəvi-psixoloji durumunun aynası kimi formalaşmışdır. Bu janr özündə həm lirikanın incə duyumlarını, həm də kollektiv yaddaşın arxaik qatlarını qoruyub saxlayır.

**NAXÇIVAN BAYATILARINDA MƏKAN OBRAZI VƏ REGİONAL KİMLİK**

Naxçıvan bayatıları mövzu və ideya baxımından zəngin olmaqla yanaşı, regional poetik təfəkkürün aydın izlərini daşıyır. Bu bayatılarda məkan anlayışı yalnız fiziki-coğrafi təsvir səviyyəsində qalmır, eyni zamanda tarixi yaddaş, mənəvi dəyərlər və sosial davranış normaları ilə vəhdətdə təqdim olunur. Yurd, torpaq, təbiət və müqəddəslik motivləri vasitəsilə Naxçıvanın regional kimliyi poetik dildə ifadə edilir və xalqın dünyagörüşü bayatı janrının lakonik imkanları çərçivəsində ümumiləşdirilir.

Azərbaycanın müxtəlif bölgələrində yaranmış bayatılar ümummilli xüsusiyyətlərlə yanaşı, regional poetik təfəkkürün izlərini də daşıyır. Bu baxımdan Naxçıvan bayatıları xüsusi diqqətə layiqdir. Tarixi-coğrafi mövqeyi, qədim mədəniyyət qatları və zəngin folklor mühiti ilə seçilən Naxçıvan bölgəsində formalaşmış bayatılar həm dil-üslub xüsusiyyətləri, həm də mövzu, məzmun baxımından fərqlidir.

Naxçıvan düzən yerdi,
Xanımlar gəzən yerdi,
Əlini ver halallaşaq,
Bura əlüzən yerdi [Azərbaycan bayatıları, 2022, s. 7].

Bu bayatı Naxçıvan məkanını təkcə coğrafi anlayış kimi deyil, dərin mənəvi-əxlaqi məzmun daşıyan bir ictimai mühit kimi təqdim edir. "Naxçıvan düzən yerdi" misrasında düzənlik anlayışı yalnız fiziki rahatlıq yox, eyni zamanda saflıq və dürüstlük rəmzi kimi çıxış edir. Ardınca gələn "Xanımlar gəzən yerdi" ifadəsi bu məkanın təhlükəsizliyini, ictimai əxlaqın yüksək səviyyəsini və qadına hörmət prinsipini ön plana çəkir. Burada qadının rahat şəkildə cəmiyyət içində hərəkət etməsi bütövlükdə toplumun mənəvi durumunun göstəricisi kimi çıxış edir. Bayatının son misralarında etik çağırış aha aydın şəkildə ifadə olunur. "Əlini ver halallaşaq" cümləsi münasibətlərin halallıq, vicdan rahatlığı və qarşılıqlı razılıq əsasında qurulduğunu göstərir. "Bura əlüzən yerdi" misrası isə bu düşüncəni tamamlayaraq Naxçıvanın harama, qeyri-etik davranışlara qapalı bir məkan olduğunu metaforik şəkildə ifadə etmişdir. Ümumilikdə bayatı Naxçıvanın regional kimliyini, xalqın əxlaq normalarını və sosial davranış normalarını lakonik, lakin dərin məna ilə ifadə edir. Mətn xalq düşüncəsində məkanla mənəviyyatın vəhdətini göstərir və Naxçıvanı mənəvi sərhədləri olan, halallıq və hörmət üzərində qurulmuş bir yaşayış məkanı kimi xarakterizə edir.

Naxçıvanda duzdumu,
Duz altında buzdumu?!
Gözəllər dəstə-dəstə,
Əllidimi, yüzdümü?! [Azərbaycan bayatıları, 2022, s. 13]

Bu bayatı Naxçıvan məkanını zəngin təbii sərvətləri və sosial-mədəni mühiti ilə birlikdə poetik şəkildə təqdim edir. "Naxçıvanda duzdumu, / Duz altında buzdumu?!" misralarında Naxçıvanın duz yataqları folklor yaddaşına xas mübaliğəli sual formasında ifadə olunur. Burada duz həm real təbii sərvət, həm də bolluq, bərəkət və qoruyuculuq rəmzi kimi çıxış edir; "duz altında buz" ifadəsi isə bu zənginliyin dərinliklərdə, gizli qatlarda yerləşdiyini vurğulayan obrazlı təsvirdir. Sual formasından istifadə bayatının emosional təsirini artırır və dinləyicini düşünməyə sövq edir.

Bayatının ikinci hissəsində diqqət təbiətdən cəmiyyətə yönəlir. "Gözəllər dəstə-dəstə" misrası Naxçıvanın yalnız sərvətləri ilə deyil, insan gözəlliyi və sosial canlılığı ilə də seçildiyini göstərir.

“Əllidimi, yüzdümü?!” sualı isə mübaliğə yolu ilə bu çoxluğu daha da qabardır, real rəqəmdən çox təsir gücü yaradan poetik vasitə kimi işlədilir. Bu bayatı Naxçıvanı təbii zənginliklə insan gözəlliyinin vəhdətdə olduğu bir məkan kimi təqdim edir. Ritorik suallar, mübaliğə və sadə xalq dili vasitəsilə məkanın həm maddi, həm də mənəvi-estetik dəyəri ön plana çıxarılır.

Naxçıvandı bu yerlər,
Özgə candı bu yerlər.
Batabat tamaşadı,
Al-əlvandı bu yerlər [Azərbaycan bayatıları, 2022, s. 13].

Göstərilən bayatı nümunəsi Naxçıvan məkanını adi bir coğrafi ərazi kimi deyil, özünəməxsus ruhu olan fərqli bir aləm kimi təqdim edir. “Naxçıvandı bu yerlər” misrası məkanın kimliyini qəti və vurğulu şəkildə bəyan edir, ardınca gələn “Özgə candı bu yerlər” ifadəsi isə Naxçıvanın başqa yerlərdən seçilən, fərqli ruhu və enerjisi olan bir məkan olduğunu poetik dillə ümumiləşdirir. Burada “can” anlayışı məkanın canlılığı, ruhu və insanla qurduğu emosional bağ mənasında işlədilir.

Bayatının davamında konkret məkan obrazı yaradılır. “Batabat tamaşadı” misrası Naxçıvanın məşhur təbiət guşələrindən biri olan Batabatın estetik dəyərini vurğulayır və onu seyrə layiq bir mənzərə kimi təqdim edir. Bu ifadə təbiətin insan üzərində yaratdığı heyranlıq hissini əks etdirir. “Al-əlvandı bu yerlər” misrası isə rəngarənglik obrazı vasitəsilə Naxçıvan təbiətinin gözəlliyini, zənginliyini və canlılığını göstərən fikirlər kimi çıxış edir. Rənglər burada yalnız vizual təəssürat yox, həm də həyat doluluğu və bolluq rəmzi kimi çıxış edir.

Naxçıvanın duzu var,
Büllur kimi duzu var.
İki könül bir olsa,
Kimin ona sözü var [Azərbaycan bayatıları, 2022, s. 14].

Naxçıvan məkanını həm maddi sərvət, həm də mənəvi dəyərlər prizmasında təqdim edən bu bayatı öz poetik çalarları ilə seçilir. “Naxçıvanın duzu var, / Büllur kimi duzu var” misralarında Naxçıvan duzu real təbii zənginlik olmaqla yanaşı, saflıq, təmizlik və dəyər rəmzi kimi ideallaşdırılır. “Büllur” bənzətməsi duzun şəffaflığını və keyfiyyətini qabartmaqla yanaşı, bu məkanın ümumi mənəvi saflığını özündə əks etdirir.

“Folklorşünas alim R.T.Babayev bayatının izahını belə şərh edir ki, qız-gəlinin xörəyin duzunu artıq etməsi nişanlısını, ərini çox sevməyinə işarədir. Deməli, duzla bağlı informasiyadan sonra “bir olan iki könül”dən danışmaq da təbiidir.” [Hüseynzadə Ə. Naxçıvan bölgəsində duzla bağlı folklor nümunələri və onların şərhi /https://aqra.az]

Bayatının son misralarında vurğu insani münasibətlərə keçir. “İki könül bir olsa” ifadəsi sevgi, razılıq və qarşılıqlı anlayış üzərində qurulan münasibəti simvolizə edir. “Kimin ona sözü var” misrası isə xalq ədalət düşüncəsini əks etdirərək belə bir birliyin cəmiyyət tərəfindən qəbul olunduğunu, ona etirazın mənəvi baxımdan əsassız sayıldığını bildirir. Burada fərdi hisslərlə ictimai norma arasında harmoniya yaradılır. Beləliklə, bayatı Naxçıvanı həm zəngin təbiəti, həm də sağlam mənəvi mühiti olan bir məkan kimi ümumiləşdirir. Mətn xalq təfəkküründə maddi bolluqla mənəvi halallığın, təbii saflıqla insani saflığın vəhdətini göstərir və bu vəhdəti Naxçıvan obrazı üzərindən poetik şəkildə ifadə edir.

Nuh adına məkan var,
Ayağından çəkən var.
Düşmən istər dağıda,
Haqdan onu tikən var [Azərbaycan folkloru antologiyası, I, 2010, s. 373].

Bu bayatı isə Naxçıvan məkanını müqəddəslik və ilahi ədalət kontekstində təqdim edən folklor nümunəsidir. Bayatıda Nuh adı ilə bağlılıq məkanın tarixi və mifoloji yaddaşını ön plana çıxarır, bu ad vasitəsilə Naxçıvan insanlığın başlanğıcı, xilas və davamlılıq anlayışları ilə assosiasiya olunur. “Nuh adına məkan” ifadəsi coğrafi ərazini adi yaşayış sahəsindən çıxararaq ilahi missiya da-

şıyan müqəddəs bir məkana çevirir və onun tarixi taleyini ümumbəşəri miqyasda mənalandırır. Bayatıda qarşıdurma motivi də mühüm yer tutur. “Ayağından çəkən var” və “düşmən istər dağıda” ifadələri bu məkanın tarix boyu müxtəlif təzyiqlərə, təhlükələrə və dağıdıcı niyyətlərə məruz qaldığını simvolik şəkildə ifadə edir. Bu qarşıdurma yalnız fiziki düşmən obrazı ilə məhdudlaşmır, eyni zamanda haqsızlıq, şər və mənəvi sarsıdıcı qüvvələrin ümumiləşdirilmiş rəmzi kimi çıxış edir. “Haqdan onu tikən var” ifadəsi məkanın varlığının ilahi güc ilə qorunduğunu göstərən dərin mənalı bir ifadədir. Burada “tikmək” sözü yalnız maddi quruculuq deyil, mənəvi bərpa, qorunma və yaşatma mənasında işlədilir. Beləliklə, bayatı dağıtmaq istəyən qüvvələrlə onu haqq yolu ilə yaşadan ali güc arasında aydın qarşılaşdırma yaradır. Bu poetik mətn Naxçıvanı müqəddəs başlanğıcı olan, çətinliklərə baxmayaraq haqq və ədalət sayəsində varlığını qoruyan bir məkan kimi ümumiləşdirir və xalqın tarixi yaddaşında formalaşmış müqavimət və inam düşüncəsini poetik şəkildə ifadə edir.

## NAXÇIVAN BAYATILARINDA SEVGİ VƏ AYRILIQ MOTİVLƏRİ

Naxçıvan bayatıları insan taleyinin, sevgi münasibətlərinin və emosional hisslərin daşıyıcısı kimi xalqın yaddaşında xüsusi yer tutur. Sevgi, ayrılıq motivləri bu bayatılarda sosial mühit, adət-ənənə və tale anlayışı ilə sıx bağlı şəkildə təqdim olunur. Beləliklə, mənəviyyat çərçivəsində formalaşan fərdi lirika Naxçıvan bayatılarının ikinci əsas ideya qatını təşkil edir və regional poetik düşüncənin emosional dərinliyini üzə çıxarır.

Mən aşıq qal Dizədə,
Düş gedək, qal Dizədə.
Mən sevdim, yad apardı,
Ürəkdə qaldı zədə [Azərbaycan folkloru antologiyası, I, 2010, s. 319].

Xalq lirikasında sevgi motivinin və tale anlayışının əlaqədə təqdim olunduğu səciyyəvi nümunələrdən biridir. Bayatıda şəxsi hisslər konkret məkan adı ilə – Dizə ilə ifadə olunur və bu məkan aşiqin daxili dünyasının daşıyıcısına çevrilir. Dizə burada yalnız coğrafi ad kimi deyil, sevginin yaşandığı, arzuların yarımçıq qaldığı və xatirələrin toplandığı mənəvi məkan kimi çıxış edir. Bayatıda əsas ideya sevginin taleyə məğlub olmasıdır. Aşiqin sevməsi kifayət etmir; “yad apardı” ifadəsi xalq düşüncəsində tez-tez rast gəlinən qismət motivini ön plana çəkir. Bu motiv sevginin fərdi iradədən asılı olmadan başqasına nəsib olmasını göstərir və bayatının faciəvi ovqatını gücləndirir. Qovuşmanın baş tutmaması nəticəsində yaranan mənəvi sarsıntı “ürəkdə qaldı zədə” obrazı ilə ümumiləşdirilir. Buradakı “zədə” anlayışı fiziki yox, sağalmayan mənəvi yaraya işarə edir və sevgi ağrısını ifadə edir.

Bir quş uçar havadan,
Qanadları qaradan.
Yar görüşə çağırıb,
Çıxammıram aradan [Azərbaycan folkloru antologiyası, I, 2010, s. 359].

Bu bayatı xalq lirikasında sevgi ilə məhdudiyyət, arzu ilə reallıq arasında yaranan daxili ziddiyyəti ifadə edən nümunə kimi diqqət çəkir. Mətnin başlanğıcında təqdim olunan quş obrazı azadlıq və ümid rəmzi kimi çıxış edir. Quşun havada uçması insanın arzu etdiyi sərbəstliyi xatırlatsa da, qanadların “qaradan” olması bu azadlığın kölgələndiyini, sevincin içində gizli bir kədərin mövcud olduğunu göstərir. Beləliklə, təbiət obrazı aşiqin daxili psixoloji vəziyyətinin simvolik ifadəsinə çevrilir. Bayatının əsas ideyası isə sevgi çağırışı ilə ictimai və ya daxili maneələr arasındakı qarşıdurma üzərində qurulur. Yar tərəfindən görüşə çağırılmaq sevginin qarşılıqlı olduğunu göstərsə də, “çıxammıram aradan” ifadəsi bu görüşün reallaşmasına imkan verməyən əngəllərin mövcudluğunu vurğulayır. “Aradan çıxa bilməmək” ifadəsi xalq poetik düşüncəsində təkcə fiziki maneə deyil, eyni zamanda adət-ənənə, sosial basqı, qorxu və ya taleyin hökmü kimi geniş mənada anlaşılır. Bu, aşiqin istəyi ilə imkanları arasındakı uçurumu dərinləşdirir.

Tərxun əkdim bel ilə,
Suvardım mən sel ilə.
Yarımdan ayrılmazdım
Ayırdılar fel ilə [Azərbaycan folkloru antologiyası, II, 2011, s. 267].

Bu bayatı xalq lirikasında sevginin təbii axarla inkişaf etməsi və sonradan sosial müdaxilə nəticəsində pozulması motivini ifadə edən dərin mənalı nümunədir. Mətnin başlanğıcında təqdim olunan tərxun obrazı sevginin zəhmətlə yetişdirilən, qayğı və sədaqət tələb edən bir hiss olduğunu simvolizə edir. Əkin və suvarma motivləri münasibətin könüllü zəhmət, səbir və fədakarlıq üzərində qurulduğunu göstərir, burada təbiətlə insan əməyinin vəhdəti sevginin təbii və səmimi mahiyyətini ön plana çıxarır. Bayatının ideya mərkəzində ayrılıq dayanır, lakin bu ayrılıq fərdi iradənin nəticəsi kimi deyil, kənar təsirin – "fel"in nəticəsi kimi təqdim olunur. Bu, sevginin qarşılıqlı olmasına baxmayaraq, sosial normaların fərdi hisslər üzərində üstün tutulduğunu göstərir. Aşiqin "yarımdan ayrılmazdım" etirafı sevginin sarsılmazlığını vurğulasa da, sonluq qaçılmaz faciə kimi təqdim edilir.

Oturdum cecim üstə,
Çəkməsi dizim üstə.
Eşitsəm ki, gəlirsən,
Muştuluq gözüm üstə [Azərbaycan folkloru antologiyası, II, 2011, s. 281].

Bayatı xalq lirikasında gözləmək, sevinc və sevgiyə hazırlıq ovqatını əks etdirən poetik nümunədir. O, gündəlik məişət detallarından çıxış edərək aşiqin psixoloji durumunu canlı və təbii şəkildə təqdim edir. Cecim və çəkmə kimi əşyalar sadə həyat tərzini, kənd-məişət mühitini ifadə etməklə yanaşı, gözləmə halının konkret məkan və zaman çərçivəsində baş verdiyini göstərir. Bu məişət səhnəsi bayatını həyati və inandırıcı edir, onu dinləyiciyə yaxınlaşdırır. Bayatının əsas emosional yükü son misralarda cəmlənir. Sevilənin gəlişi xəbəri aşiq üçün ən böyük müjdə kimi təqdim olunur və bu xəbər hər cür zəhmətə, hər cür fədakarlığa dəyər sayılır. "Muştuluq gözüm üstə" ifadəsi xalq düşüncəsində sevincin, hörmətin və minnətdarlığın ən yüksək formalarından biridir və burada aşiqin sevgi dolu gözləntisini, gəlişə hazır olma halını ümumiləşdirir. Göz obrazı sevgi, diqqət və könül açıqlığının rəmzi kimi çıxış edir.

## NƏTİCƏ

Naxçıvan bayatıları Azərbaycan xalq ədəbiyyatında həm regional xüsusiyyətləri, həm də ümummilli poetik prinsipləri özündə birləşdirən unikal folklor nümunələridir. Bu bayatılarda məkan motivi yalnız coğrafi mənada deyil, eyni zamanda mənəvi, tarixi və estetik dəyərlərin poetik təcəssümü kimi təqdim olunur. Naxçıvanın təbii sərvətləri, sosial-mədəni mühiti və mənəvi dəyərləri bayatılarda sintez olunmuş obrazlar vasitəsilə oxucuya çatdırılır.

Eyni zamanda, Naxçıvan bayatılarında fərdi lirika – sevgi, tale, ayrılıq motivləri sosial normalar, adət-ənənə və kollektiv yaddaş çərçivəsində təqdim olunur. Fərdi emosiyaların kollektiv fikrə çevrilməsi, xalqın estetik zövqü və dünyagörüşünün poetik ifadəsi bu janrı dərin mənalı və zəngin edir.

Beləliklə, Naxçıvan bayatıları həm regional-mədəni kimliyin, həm də Azərbaycan xalq ədəbiyyatının mənəvi dəyərlərinin ifadəçisi kimi çıxış edir. Onlar xalqın tarixi yaddaşı, emosional-estetik təcrübəsi və sosial-mənəvi düşüncəsini qısa, lakin güclü ifadələrlə əks etdirərək folklor xəzinəsinin əvəzsiz nümunələrini yaradır.

## ƏDƏBİYYAT

*Azərbaycan bayatıları*. (2022). Elm və təhsil.

*Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru* (1-ci cild). (2010). Əcəmi.

*Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru* (2-ci cild). (2011). Əcəmi.

Hacılı A. (2019). *Bayatı poetikası: struktur, semantika, praqmatika.* Elm.

Hüseynzadə Ə. *Naxçıvan bölgəsində duzla bağlı folklor nümunələri və onların şərhi /https://aqra.az*

*(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.01.2026**
**Son variant 16.02.2026**